*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır   6 iyul 2016-cı il   № 51 (2066)   Qiymәti 25 qәpik


## Ramazan bayramı münasibətilə Azərbaycan xalqına təbrik



Hörmətli həmvətənlər!

Sizi müqəddəs Ramazan bayramı münasibətilə ürəkdən təbrik edir, ən səmimi arzu və diləklərimi yetirirəm.

Müqəddəs kitabımız Qurani-Kərimin nazil olduğu mübarək Ramazan ayı mənəviyyatı möhkəmləndirən, müsəlmanlar arasında dini-mənəvi birlik duyğusunu gücləndirən, hər bir şəxsin daxili kamilliyinin formalaşmasına xidmət edən aylardan biridir. Bu bayram insanları savab əməllərə dəvət edir, onları yer üzündə sülhün, əmin-amanlığın və qardaşlığın bərqərar olması naminə birgə səylər göstərməyə çağırır.

İslam dünyasının mədəni mərkəzlərindən biri kimi tanınmış Azərbaycanda dini və milli-mənəvi dəyərlərə hörmət həmişə xüsusi həssaslıqla qorunub saxlanılmışdır. Bu gün əsl tolerantlıq örnəyinə çevrilən ölkəmizdə ayrı-ayrı dinlər və təriqətlər arasında qarşılıqlı hörmətin inkişaf etdirilməsi dövlət siyasətinin əsas istiqamətlərindəndir.

Azərbaycanda müxtəlif milli və dini mərasimlər, o cümlədən, Ramazan bayramı hər il dövlət səviyyəsində təntənəli şəkildə qeyd olunur. Eyni zamanda məmnunluqla deyə bilərik ki, ölkəmizdə yaşayan bütün dinlərin nümayəndələri bəşəri hadisə olan Ramazan bayramına böyük sevgi ilə yanaşır, ölkəmizin multikultural ənənələrini ehtiramla qoruyurlar.

Əziz bacı və qardaşlarım!

İnsanlarda vəhdət və humanizm duyğularını, Allah və Vətən sevgisini daha da gücləndirən Ramazan bayramı hər il olduğu kimi, bu il də bütün xalqımız tərəfindən böyük ruh yüksəkliyi və könül xoşluğu ilə qeyd edilir. Bu əziz bayram günlərində sizi və ölkəmizdən kənarda yaşayan soydaşlarımızı bir daha təbrik edir, hər birinizə firavanlıq, ailələrinizə xoşbəxtlik, süfrələrinizə bərəkət arzulayıram.

Ramazan bayramınız mübarək olsun!

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, 4 iyul 2016-cı il.

## Ramazan bayramı münasibətilə Azərbaycan Respublikası Müdafiə nazirinin Silahlı Qüvvələrin şəxsi heyətinə təbriki

Cənab zabitlər, gizirlər, miçmanlar, çavuşlar, əsgərlər və matroslar!

Sizi Ramazan bayramı münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Milli-mənəvi dəyərlər xalqın mənəvi sərvətidir. Bu dəyərləri həmişə yüksək tutan ümummilli liderimiz Heydər Əliyev milli və dini adət-ənənələrimizin qorunub saxlanılmasının da qayğısına qalmışdır. Məhz onun hakimiyyəti dövründə ölkəmizdə sağlam dinlərarası münasibətlər qurulmuşdur. Bu gün Azərbaycanda vicdan azadlığı və tolerantlığın hökm sürməsi, ölkəmizin dünyanın multikulturalizm mərkəzinə çevrilməsi ulu öndərimiz Heydər Əliyevin təməlini qoyduğu müdrik siyasətin nəticəsidir. Bərabərlik və mənəvi təmizlik kimi yüksək əxlaqi hisslər aşılayan, bu günümüzə qədər yaşadılan Ramazan bayramı Azərbaycanda yüksək səviyyədə qeyd olunur.

Dünya dövlətləri arasında dini tolerantlıq nümunəsi kimi tanınan respublikamız möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında sivil və demokratik inkişaf yolu ilə inamla irəliləyir. Bu gün ölkəmizdə iqtisadiyyatın dinamik inkişafı təmin edilmiş, əhalinin həyat səviyyəsi yaxşılaşmış, dövlətimizin müdafiə qüdrəti artmış, müstəqilliyimiz daha da möhkəmlənmişdir.

Aprel döyüşləri Silahlı Qüvvələrimizin döyüş ruhunun, döyüş qabiliyyətinin və gücünün təsdiqi oldu. Torpaqlarımızın bir qismi işğaldan azad edildi. Cənab Ali Baş Komandan "Biz imkan verməyəcəyik ki, bizim torpağımızda ikinci erməni dövləti yaransın" fikrini dəfələrlə vurğulayıb. Biz də Prezidentin və Azərbaycan xalqının etimadını doğrultmaq üçün əlimizdən gələni edib torpaqları qısa bir müddətdə işğaldan azad etməliyik.

İnanıram ki, bundan sonra da Azərbaycan Respublikası Konstitusiyasına, Hərbi Anda və Nizamnamələrə sadiq qalaraq respublikamızın ərazi bütövlüyünün bərpa edilməsi, torpaqlarımızın işğaldan azad olunması naminə xidməti borcunuzu şərəf və vicdanla yerinə yetirəcək, döyüş və mənəvi-psixoloji hazırlığın daha da yüksəldilməsində səylərinizi artıracaqsınız.

Hər birinizə möhkəm cansağlığı, uzun ömür, ailə səadəti və xidmətinizdə uğurlar arzulayıram.

**General-polkovnik**
**Zakir HƏSƏNOV**
**Azərbaycan Respublikasının Müdafiə naziri**



Dönməz inam

2-ci səhifədə



"Döyüşə hər zaman hazırıq"

3-cü səhifədə



"Açıq qapı" gününün təəssüratları"

5-ci səhifədə



Əsgərlərimizə ana qayğısı

8-ci səhifədə

*Döyüş hazırlığı*

# Dönməz inam

***Ordunun qüdrəti əsgərinin gücündən asılıdır. Bu fikri dahi sərkərdələr, hərb xadimləri çox deyib və bu gün də deyilir. Doğrudan da, ordunun qüdrətini artıran əsas şərtlərdən biri əsgəri heyətin peşəkarlığı, vətənpərvərliyi, savadı və bacarığıdı. Cümhuriyyət dövründə hərbi nazir olmuş görkəmli Azərbaycan sərkərdəsi, tam artilleriya generalı Səməd bəy Mehmandarov xatirələrində yazır ki, həmişə zəfər qazanan əsgərlərimizin görüşünə böyük həvəslə gedərdim və onların hünəri qarşısında baş əyməyi özümə borc bilərdim. Təxminən bu məzmunda fikirləri Müdafiə naziri general-polkovnik Zakir Həsənov da deyib. Nazir Silahlı Qüvvələr Günü ərəfəsində aprel döyüşlərində hünər və rəşadət göstərmiş əsgərlərimizi, Vətən uğrunda can əsirgəməyən oğulları cəmiyyətimizə nümunə göstərdi.***





"N" hərbi hissəsi yarandığı gündən cəbhə bölgəsində yerləşir. Silahlı Qüvvələrimizin tarixində şərəfli döyüş yolu keçmiş bölmələrdən biridir. Zabit Səməd Məmmədovun sözlərinə görə, burada xidmətə başlayan əsgərlərə hərbi hissənin Vətənimizin ərazi bütövlüyü uğrunda mübarizədə yeri və rolu barədə ətraflı məlumat verilir. "Gənc əsgərlər zəngin döyüş xidmətlərinə malik hərbi bölmədə xidmət etməkdən fərəh hissi duyurlar. Onlara müqəddəs amallar uğrunda şəhid olan hərbi qulluqçularımızdan, orden-medallı igidlərimizdən söhbət açırıq. Belə hisslər aşılanan əsgərlər döyüş növbələrində həmişə ayıq-sayıq dayanır, torpaqlarımızı göz bəbəyi kimi qoruyurlar".

Zabit qeyd etdi ki, gənc artilleriyaçılar mövqelərin qorunmasında və düşmənin ehtimal edilən təxribatlarının qarşısının alınmasında xüsusi fərqlənirlər.

Cəbhə xəttinə yaxın mövqedə yerləşən artilleriya bölmələrindən birinə baş çəkirik. Top komandiri çavuş Tural İbrahimov hərbi xidmətini başa vurub, ata-baba yurdunun düşmən tapdağında qalması onu yenidən orduya qaytarıb.

- İşğalda olan kəndimizi çox çətinliklə xatırlayıram, - deyir çavuş. - Onda cəmi 5-6 yaşım olardı. O vaxtlar hər səhər top-mərmi səsinə diksinərdik. Atam deyir ki, kəndimiz Ağdamın ən səfalı guşələrindən biridir, hər dəfə əzəli yurd yerlərimizdən söhbət düşəndə doğmalarımın göz yaşları ürəyimi üzür. Biz gənclər hərbi vərdişlərimizi artırmaqla hər saat, hər an yağıları torpaqlarımızdan qovub çıxarmağa hazır olmalıyıq. Hazırıq da. Tabeliyimdə olan top heyəti təlim və məşğələlərdə daim fərqlənir. Aprel döyüşlərində də barmağımız silahın tətiyində idi.

Bu gün ordumuzda xidmət edən əsgərlərin hər biri Tural kimi düşünür və torpaqlarımızın işğaldan azad edilməsi üçün Ali Baş Komandanın əmrini gözləyir. Gənclərimizi düşmən üzərində qələbəyə ruhlandıran bir çox amillər aprel hadisələrində özünü daha qabarıq göstərdi. Keçmişinə, millətinə bağlı olan vətənpərvər gəncliyimiz formalaşıb. Silahlı Qüvvələrimizin şəxsi heyətinin böyük əksəriyyətini belə gənclər təşkil edir.

Röyal Şahmuradovla, Ramin Əliyevlə, Tərlan İmanlı ilə və Rahil Gözəlovla söhbətimi davam etdirirəm. Röyal tuşlayıcı vəzifəsində xidmət edən baş əsgərdir, hərbi xidmətə Ağsu rayonundan çağırılıb. Deyir ki, top komandirinin həm vətənpərvərliyi, həm də döyüş peşəkarlığı hər birimizə örnəkdir.

Top heyətinin bacarıqlı üzvlərindən olan əsgər Tərlan İmanlı da söhbətində deyir ki, hər gün məşğələ və təlimlərdə qazandıqları vərdişlər onların döyüş əzmini daha da artırır. "Biz hər an düşmən üzərində qələbə əldə etməyə qadirik."

Hər birimiz inanırıq ki, Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad edəcəkdir. Bu, xalqın dönməz inamıdır.

**Polkovnik-leytenant Arif PƏNAHOV, "Azərbaycan Ordusu", fotolar Mahmud MÖHBALIYEVİNDİR**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Düşmənin dövlət sərhədimizdə təxribatı nəticəsində əsgərimiz şəhid olub

Son üçtərəfli danışıqlarda əldə edilən razılaşmaya baxmayaraq, düşmən tərəf atəşkəs rejimini pozaraq Azərbaycan-Ermənistan dövlət sərhədində növbəti dəfə təxribat törədib.

İyulun 5-də saat 12:30-da düşmən tərəfinin snayper atəşi nəticəsində hərbi qulluqçumuz əsgər Əliyev Vüsal Əmir oğlu şəhid olub.

Müdafiə Nazirliyi bildirir ki, düşmən təxribatlarının nəticələrinə görə bütün məsuliyyət Ermənistanın kriminal hərbi-siyasi rejiminin üzərinə düşür.

Müdafiə Nazirliyinin rəhbərliyi şəhidin yaxınlarına, əzizlərinə dərin hüznlə başsağlığı verir və səbr diləyir!

## Silahlı Qüvvələrimizin nümayəndələri beynəlxalq tədbirdə iştirak edirlər

İyulun 4-dən 29-dək Vışkov şəhərində (Çexiya Respublikası) əməliyyat atıcılığı üzrə kurs keçirilir.

Kursda Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nümayəndələri də iştirak edirlər.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***5 iyul 2016-cı il.***

Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 9 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Barekamavan, İcevan rayonunun Voskevan, Vozaşen kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun Bala Cəfərli, Quşçu Ayrım kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz kəndləri yaxınlığında yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

# Qələbə qazanmağa qadir əsgərlər...



Yaşıllığa bürünmüş dərələrdən adlayıb təlim keçən zabit və əsgərlərin yanına yollandıq. Yayın ilk günləri olsa da, ətrafdan yaz qoxusu gəlir, gül-gülü, bülbül-bülbülü çağırırdı. Bu xoş anlarda insanın yaşamaq həvəsi artır.

Təlim meydanındayıq. Əsgərlər zabitlərin nəzarəti altında məşq edib döyüş təcrübələrini artırırdılar.

Mayor Bayram İbişov dedi ki, təsdiq olunmuş döyüş hazırlığı planına uyğun olaraq şəxsi heyət dərs və məşğələlər keçib silahların və hərbi texnikaların sirlərinə hərtərəfli yiyələnir. "Bütün məşğələləri yaxından izləyir, gənc əsgərlərə hərbi bilikləri dərindən aşılamağa çalışırıq. Ordu sıralarında ilk addımlarını atan əsgərlər döyüş vərdişlərini, silahların sirlərini yetərincə öyrənməyə can atırlar. Bugünkü məşğələdə şəxsi heyət iriçaplı pulemyotun sirlərini mənimsəyir. Bu, gənc əsgərlərin ilk məşğələsi deyil. İndiyə qədər onlar dəfələrlə həm nəzəri, həm də təcrübi məşğələlərdə iştirak edərək döyüş vərdişlərini mənimsəyiblər."

Komandir şəxsi heyətə növbəti əmrlərini verir. Əsgərlər tapşırığı yerinə yetirmək üçün cəld hərəkətlə iriçaplı pulemyot silahını döyüş vəziyyətinə gətirirlər. Onların çevikliyi xoş təəssüratlar oyadır. Hiss olunur ki, bu günə qədər keçirilən məşğələlərdə döyüş vərdişlərinə mükəmməl yiyələniblər. Tez bir zamanda pulemyotu döyüş vəziyyətinə gətirib atışa hazır olduqlarını bildirirlər. Deməli, zabitlərin köməyi sayəsində ötən müddət ərzində bacarıqlı, peşəkar əsgərlər hazırlanıb. Bu əsgərlər döyüşlərdə uğur qazanmağa, düşməni məhv etməyə qadirdirlər.

Təlim keçən şəxsi heyətlə tanış oluram. Əsgərlərdən Elmin Məmmədzadə, Tahir Qüdrətli, Kamran Əsgərov, Seyran Hüseynov və başqaları söhbət zamanı bildirdilər ki, bundan sonra da təlim-məşqlərdə fəal iştirak edərək Vətənə layiqli əsgər olacaqlar.

Məşğələ öz axarı ilə davam edir. Əsgərlər dərsin mövzusuna uyğun olan hərəkətləri yerinə yetirirlər.

**Mayor Vahid MƏHƏRRƏMOV, "Azərbaycan Ordusu"**

# Veteranlar göstərilən diqqət və qayğını yüksək qiymətləndirirlər

***Azərbaycanda veteranlara diqqət və qayğı siyasətinin əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulub. Ulu öndərin 1993-cü ildə ölkə rəhbərliyinə qayıdışı ərəfəsində az qala unudulmaqda olan 9 May - Qələbə Gününün yenidən dövlət bayramları sırasına daxil edilməsi, müharibə veteranlarının sosial müdafiəsinin gücləndirilməsi istiqamətində mühüm işlərin görülməsi, o cümlədən onlara dövlət hesabına mənzil və xüsusi nəqliyyat vasitəsinin verilməsi təmin olunub. Müdrik dövlət xadimi Heydər Əliyevin 1994-cü il iyunun 28-də imzaladığı "Veteranlar haqqında" qanunda bu diqqət və qayğının hüquqi əsasları müəyyənləşdirilib.***



AZƏRTAC xəbər verir ki, əlamətdar gün münasibətilə iyunun 28-də Respublika Veteranlar Təşkilatının rəhbərliyi və üzvləri, müharibə, əmək və Silahlı Qüvvələr veteranları, ictimai təşkilatların nümayəndələri, ziyalılar, gənclər Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini yad edib, məzarı önünə əklil qoyublar.

Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər çiçəklər düzülüb.

Sonra Şəhidlər xiyabanına gələn veteranlar Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının məzarları üzərinə gül dəstələri, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyublar.

İki dəfə Sovet İttifaqı Qəhrəmanı general-mayor Həzi Aslanovun da xatirəsi dərin ehtiramla yad olunub, abidəsi önünə əklil qoyulub.

Respublika Veteranlar Təşkilatının inzibati binasında keçirilən tədbirdə bu qurumun sədri ehtiyatda olan general-mayor Dadaş Rzayev bu günün əhəmiyyətindən danışıb. Bildirib ki, ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə respublikada bütün sahələrdə olduğu kimi, veteranlar təşkilatının fəaliyyətində də canlanma yaranıb. Qeyd olunub ki, 1987-ci il mayın 6-da Respublika Veteranlar Təşkilatı yaradıldı. Həmin vaxt təşkilata general-mayor Mustafa Nəsirov sədrlik edirdi. Ancaq sonrakı mərhələdə, xüsusilə 1990-cı illərin əvvəllərində ölkədə yaşanan xaos, hərc-mərclik Respublika Veteranlar Təşkilatının fəaliyyətinə də mənfi təsir göstərib.

Diqqətə çatdırılıb ki, ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə Azərbaycanda rəhbərliyə qayıtması ilə veteranlar təşkilatının fəaliyyəti bərpa olunub, veteranlara münasibət dəyişib, bu istiqamətdə ardıcıl və məqsədyönlü addımlar atılıb. Ulu öndərin imzaladığı ilk sənədlərdən biri də məhz "Veteranlar haqqında" qanun olub. Bununla da veteranlara dövlət qayğısı tam bərpa edilib, onlara münasibət yüksək səviyyəyə qaldırılıb.

D.Rzayev vurğulayıb ki, Azərbaycanda veteranlarla bağlı ardıcıl şəkildə həyata keçirilən dövlət siyasətinin əsası məhz həmin vaxtdan etibarən qoyulub. Bu siyasət sonrakı mərhələdə Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilib, veteranlara dövlət qayğısı yeni səviyyəyə qaldırılıb. Bu qayğının ən son nümunəsi kimi Respublika Veteranlar Təşkilatına ayrılan və müasir standartlara cavab verən inzibati binanı, 1941-1945-ci illər İkinci Dünya müharibəsində faşizm üzərində Qələbə münasibətilə ayrılan birdəfəlik maddi yardımın və pensiyaların miqdarının ildən-ilə artırılmasını, veteranların mənzil və şəxsi avtomobillə təmin edilməsini, pulsuz müalicə olunmalarını, onlara digər yardımların göstərilməsini qeyd etmək olar. Sədr bu baxımdan Respublika Veteranlar Təşkilatına 500 min manat məbləğində vəsaitin ayrılmasının önəmini xüsusi vurğulayıb, buna görə veteranlar adından dövlətimizin başçısına minnətdarlığını bildirib.

Tədbirdə, eyni zamanda, veteranlar və ictimai təşkilatların nümayəndələri çıxış edib, onlara göstərilən qayğının ilbəil artırılmasına görə dövlətimizin başçısına minnətdarlıqlarını çatdırıblar. Çıxış edənlər Azərbaycanda veteran gününün təsis edilməsinin məqsədəuyğun olduğunu bildiriblər.

Sonda ictimai təşkilatların nümayəndələrinə və bir qrup veterana Respublika Veteranlar Təşkilatının yubiley medalları təqdim edilib.

*Nümunəvi xidmət*

# "Döyüşə hər zaman hazırıq"

***"N" hərbi hissəsinin düşmənlə təmas xəttində nümunəvi xidməti ilə fərqlənən və şəxsi heyətin sosial-məişət təminatına cavabdeh olan bölüyün baş çavuşu gizir Hünər Qaçayevin ordu sıralarında 2006-cı ildən xidmət etdiyini öyrənirəm.***



Kürdəmir rayonunun Qarasaqqallı kəndindən olan Hünər, əsgəri xidmətini Hərbi Dəniz Qüvvələrində keçib. Daha sonra vətənpərvərlik sevgisi, hərbçi olmaq istəyi onu yenidən ordu sıralarına qaytarıb. Gizir Qaçayevin hərbçi olmaq istəyi hələ 5-6 yaşlarında olarkən yaranıbmış.

- Qarabağ müharibəsi illərində vətəndaşlarımızın doğma torpaqlarından didərgin salınması, erməni qəsbkarları tərəfindən törədilən soyqırımlar, faciələr məndə düşmənə nifrət hissi yaratmışdı. Müəllimlərimə deyirdim ki, böyüyəndə hərbçi olacam, torpaqlarımızı işğaldan azad etmək və qardaş-bacılarımızın qisasını almaq üçün döyüşəcəm, - deyir Hünər.

2006-cı ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində gizirlik kursunu bitirdikdən sonra Naxçıvan Muxtar Respublikasında yerləşən "N" hərbi hissəsində xidmətə başlayır. Taqım komandirinin müavini vəzifəsində xidmət edən Hünər Qaçayev xidmətinin ilk günlərindən bacarığı, məsuliyyəti ilə seçilir. Taqım komandiri kimi müxtəlif hərbi hissələrdə xidmət yolu keçən gizir hazırda ön xətdəki bölmənin baş çavuşu vəzifəsindədir. Gizir H.Qaçayev uzun müddətdir bu bölmədə xidmət edir. Bölmənin göz oxşayan təmizliyi, əsgərlərin səliqə-sahmanı Hünərin bölüyün baş çavuşu vəzifəsinin öhdəsindən layiqincə gəldiyini sübut edir. Bacarıqlı gizir xidməti dövründə mükafatlara layiq görülüb. 2008-ci ildə "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)" yubiley medalı və 2015-ci ildə "Qüsursuz xidmətə görə" medalı ilə təltif olunub.

Gizir söhbətimizdə deyir ki, hər səhər şəxsi heyətin sıra baxışını keçirir və hərbi geyimlərinin qaydasında olmasını diqqətdə saxlayır. Həmçinin, əsgərlərin vaxtı-vaxtında tibbi müayinədən keçməsinə və gündəlik isti yeməklərlə qidalanmasına nəzarət edir.

- Döyüş hazırlığı, maddi-texniki təminatla yanaşı, əsgərlərin sosial-məişət şəraiti də daim diqqət mərkəzindədir. Bölüyümüzdə qida təminatımız da yüksəkdir. Əsgərlərimizin yataq dəstləri, əl-üz dəsmalları və s. hər həftə dəyişilir. Əsgərlər hər gün baxış zamanı ehtiyac duyduqları ləvazimatla təmin olunurlar, - deyir gizir.

O, əsgərlərin mənəvi durumu ilə də yaxından maraqlanır, onlarla daim söhbət edir və qayğılarına qalır.

- Biz döyüşə hər zaman hazırıq, - deyə vətənpərvər gizir söhbətinə davam edir. - Hər bir Azərbaycan əsgəri kimi biz də Ali Baş Komandanın istənilən əmrini yerinə yetirməyə qadirik. Aprel döyüşləri zamanı Azərbaycan Ordusunun qələbəsi ruh yüksəkliyimizi daha da artırıb.

**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu"**

# Havanın hərarətinin yüksəlməsi ilə əlaqədar bir sıra tədbirlər görülür

Havanın temperaturunun yüksəlməsi ilə əlaqədar Silahlı Qüvvələrin şəxsi heyəti arasında istilik və günvurma hallarının qarşısının alınması məqsədilə Müdafiə naziri general-polkovnik Zakir Həsənovun göstərişinə əsasən, hərbi hissə və birləşmələrdə xüsusi rejimin tətbiq olunmasına başlanılıb.

Havanın hərarətinin yüksək olduğu günlərdə şəxsi heyətin istilik və günvurmadan qorunması məqsədilə günün nizam qaydalarına dəyişiklik edilərək döyüş hazırlığı məşğələləri saat 11:00-dək və 17:00-dan sonra keçirilir. Eyni zamanda hərbi qulluqçulara günorta saatlarında istirahət üçün vaxt da verilir.

Döyüş hazırlığı və gündəlik fəaliyyət tədbirləri planlaşdırılarkən hərbi qulluqçular günəş şüalarının birbaşa düşdüyü ərazidə deyil, əsasən kölgəlikdə, kazarma şəraitində yerləşdirilir, açıq səma altında görülən xidməti işlərə cəlb olunmur. Əsgər yataqxanaları, yeməkxanalar, tibb məntəqələri, digər xidməti və inzibati otaqlar kondisioner və ventilyatorlarla təmin edilir.

Eyni zamanda hərbi hissələrdə sərin su duşları və əlavə su təchizatı məntəqələri yaradılıb, şəxsi heyət içməli su və fərdi su qabları ilə təmin edilib.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

AZƏRBAYCAN ORDUSU

Ordu və cəmiyyət

# Xoş ovqatlı görüş



**Cəbhə bölgələrində döyüş növbəsi aparan zabit və əsgərlərimizə tez-tez baş çəkən xeyirxah kollektivlərdən biri də Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsidir. Bu təşkilat hər il təmas xəttində düşmənlə üzbəüz mövqelərdə döyüş növbəsi aparan hərbi kollektivlərə baş çəkir, onlarla səmimi ünsiyyətdə olur, zabit və əsgərlərimizin qarşısında incəsənət adamlarının konsertini təşkil edir.**

Bu günlərdə Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsi yenə cəbhə bölgəsinə üz tutmuş və böyük bir heyətlə ön xətdə Vətənimizin keşiyində dayanan zabit və əsgərlərimizin görüşünə gəlmişdilər. Maraqlı tədbirdə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin gənc sənətçiləri, həmçinin Azərbaycan Yazıçılar Birliyi Beyləqan rayon şöbəsinin üzvləri də iştirak edirdilər.

Onu da qeyd edim ki, cəbhə bölgəsində döyüş növbəsi aparan hərbi kollektiv üçün yaradılmış xidməti şərait göz oxşayır. Dövlətin hərtərəfli qayğısı ilə əhatə olunmuş Silahlı Qüvvələrimizin bu hərbi hissəsində yeni və müasir hərbi şəhərcik inşa edilərək şəxsi heyətin istifadəsinə verilib. Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin rəhbər heyəti şəhərciyin açılışında iştirak etmiş, zabit, gizir və əsgərlərimiz üçün orada yaradılmış şəraitlə tanış olmuşdu.

Bakıdan gəlmiş qonaqlarla görüş hissənin geniş salonunda baş tutdu. Öncə zabit Namiq Cavadov çıxış edərək qonaqlara döyüşçülərimizi yada saldıqlarına görə komandanlıq adından minnətdarlığını bildirdi. Zabit hərbi hissənin döyüş yolundan danışdı, şəxsi heyətin düşmənlə təmas şəraitində bu gün ayıq-sayıq səngərlərdə döyüş növbəsində dayandığını komitə üzvləri və Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin tələbələrinin diqqətinə çatdırdı.



Çıxış üçün söz alan Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin sədr müavini Mirzə Cəfərzadə komitənin sədri millət vəkili Səttar Möhbalıyevin adından salona toplaşan şəxsi heyəti salamladı, döyüşçülərimizə Vətənimizin müdafiəsi naminə xidmətlərində uğurlar, şəxsi həyatlarında xoşbəxtlik arzuladı.

- Respublika komitəsi rəyasət heyətinin qərarına uyğun olaraq hər il biz ön cəbhədə qulluq edən əsgər və zabitlərimizə baş çəkirik, - Mirzə müəllim dedi. - Keçən il cəbhənin şimal bölgəsində şəxsi heyətlə görüşdük. İndi isə cənuba - sizinlə görüşə gəlmişik. Yəni bu, bizim komitənin ənənəvi keçirdiyi tədbirlərdəndir. Mədəniyyət xadimlərimiz məmnuniyyətlə zabit və əsgərlərimiz üçün öz sənətlərini nümayiş etdirirlər. Bu dəfə döyüşçülərimizlə görüşə ürəklərinin istəyilə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin gənc sənətçiləri gəliblər. Onlar Vətənimizin keşikçiləri üçün xüsusi konsert proqramı tərtib etmişlər. İnanırıq ki, onların çıxışı hərbçilərimizin ürəyincə olacaq.

Çıxışlardan sonra söz Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetindən gəlmiş musiqiçilərə verildi. Onlar Vətənimizin keşikçiləri üçün repertuara saldıqları musiqi nömrələri ilə çıxış etdilər.

Gənc ifaçılar, doğrudan da, ilk anlardan şəxsi heyətin zövqünü oxşamağı bacardılar. Onlar həm vətənpərvərlik mövzusunda mahnı və marşları ifa etdilər, həm də Azərbaycan gəncləri arasında populyar olan və sevilən hitləri döyüşçülərin diqqətinə çatdırdılar. Ansamblın ifa etdiyi tərənələr döyüşçülərimizin ürəyincə oldu və hərbçilər bir-bir, iki-bir ortaya çıxaraq rəqs etdilər.

Eyni zamanda gənc sənətçilər əsgərlər arasında maraqlı viktorina keçirdilər və orada qoyulmuş suallara doğru cavab verən döyüşçüləri mükafatlandırdılar.

Sonra söz Azərbaycan Yazıçılar Birliyi Beyləqan rayon şöbəsinin üzvlərinə verildi. Şöbənin sədri Asif Cəfərli və başqaları döyüşçülər qarşısında vətənpərvərlik ruhunda yazdıqları şeirlərini oxudular, təzə işıq üzü görmüş kitablarını hərbi hissənin kitabxanasına bağışladılar.

Döyüşçülər də qonaqlar qarşısında "borclu" qalmadılar və hərbi hissənin geniş meydançasında kəşfiyyatçılar hazırladıqları əlbəyaxa döyüş üzrə maraqlı kompozisiyanı böyük həvəslə nümayiş etdirdilər və alqışlar qazandılar.

Bütün şəxsi heyətin sevincinə səbəb olmuş mədəni-kütləvi tədbirin yekununda Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsi adından sədr müavini Mirzə Cəfərzadə hərbi hissəyə iki müasir televizor hədiyyə etdi.

Zabit Şahin Qəhrəmanov hərbi hissəyə gətirdikləri sovqata və maraqlı konsert proqramına görə qonaqlara öz təşəkkürünü bildirdi, onlara uğurlar arzuladı.

Həmkarlar İttifaqı Komitəsinin təşkilatçılığı ilə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetindən gəlmiş musiqiçilərin, Azərbaycan Yazıçılar Birliyi Beyləqan rayon şöbəsinin üzvlərinin hərbçilərlə görüşü öz səmimiliyi və mehribanlığı ilə xoş duyğular oyatdı. Ön xətdən qayıdarkən qonaqların əhval-ruhiyyəsi olduqca yüksək idi. Bu xoş ruhu onlara ön xətdə döyüş növbəsi aparan Vətən oğulları aşılamışdı.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar müəllifindir**

Tibb xidməti

# Hərbçilərin sağlamlığı keşiyində

Dağa, düzə, dərəyə, təpəyə, ... təsadüfi ad verilmir. Zamanında belə olur, indi də belədi. Onun mütləq bir səbəbi, hərfi mənası olub.

Atəşkəs olsa da, düşmən həmişə mövqelərimizi, Tapqaraqoyunlunu təpəliklərdən atəşə tutub. Aprelin ilk günlərində Azərbaycan əsgəri əks-həmlə ilə həmin yüksəkliyi ələ keçirdi, indi burada üçrəngli bayrağımız dalğalanır. Təpəyə ad verildi: "Bayraqtəpə"...

Yolum "Bayraqtəpə"yədir. Hərbi hissənin qərargahından yola düşmək ərəfəsində mayor Qafqaz Əsgərov həkimlərlə görüşməyi məsləhət gördü: “Həkimlər döyüşlər zamanı peşə borcunu yüksək səviyyədə yerinə yetirdilər. Aprel döyüşləri zamanı onların böyük xidməti oldu. Döyüş meydanında bir nəfər də olsun tibbi yardım göstərilməyən, yaxud gec tibbi yardım göstərilən yaralımız olmadı. Onlar ən qaynar nöqtələrdə də yaralı döyüşçülərimizə yardım etdilər. Tibb xidməti mayoru Akif İsmayılov elə xidmət təşkil etmişdi ki, yaralılara yerindəcə ilk tibbi yardım göstərirdi.”



Akif İsmayılov 2000-ci ildə Azərbaycan Tibb Universitetini "terapevt" ixtisası üzrə bitirib. On beş ildir ordu sıralarında xidmət edir. Cəbhənin müxtəlif istiqamətlərində düşmənlə üzüzə mövqedə xidmət edən əsgərlərin sağlamlığı keşiyindədir. Ötən ilin yekunlarına görə rəhbərlik etdiyi tibb xidməti hissəsi birlik üzrə birinci yerə layiq görülüb.

Bu il aprel döyüşləri zamanı özü də, tibb məntəqəsinin həkimi tibb xidməti leytenantı Orxan Həsənov, feldşerlər Mais Ağakərimov, Zaur Fərzəliyev, Heydər Əsədov, tibb bacıları Ülviyyə Aslanova, Sahibə İsmayılova, sanitar-təlimatçılardan Pərviz Behbudov, Elvin Qasımov, Eltun Alışov, sürücülərdən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Nadir Tağıyev, əsgər Mərhəmət Yahyazadə yüksək bacarıq nümayiş etdiriblər.

Tibb xidməti mayoru Akif İsmayılov deyir ki, hər bir çətinliyə sinə gərib. "Həyatda zəhmət çəkmədən heç nəyə nail olmaq mümkün deyil. Cəbhə bölgəsində xidmətin də çətinlikləri var. Yolumu inamla getmişəm. Məqsədim, amalım əsgərlərin sağlamlığı olub.

Döyüşlər başlayanda bütün fəaliyyətimi cəbhənin ən ağır istiqaməti olan, az sonra "Bayraqtəpə" adlandırılacaq təpəliyə yönəltdim. Sürücü kiçik çavuş Nadir Tağıyevlə irəlidə düşmənlə üz-üzə döyüşən əsgərlərin yanında idim. Düşmən bütün gücünü olduğumuz istiqamətə yönəltmişdi. Buna baxmayaraq döyüş meydanında bütün yaralılara tibbi yardım göstərildi. Yaralıların səyyar tibb qrupuna vaxtında çatdırılmasını təmin etdik. Çevik xidmətimiz sayəsində bütün yaralılar ölümdən xilas edildi."

Döyüşlərdəki fəaliyyətinə görə həkim Akif İsmayılova növbədənkənar tibb xidməti mayoru hərbi rütbəsi verildi.

Tibb xidməti istər müharibə, istərsə də dinc dövrdə orduda daim diqqət çəkən sahələrdəndir. Belə ki, yay ayları müxtəlif infeksion xəstəliklərin baş qaldırdığı dövr hesab edilir. Buna baxmayaraq bölmələrdə əvvəlcədən profilaktik tədbirlər həyata keçirilib. Bölmələrlə daim əlaqə saxlanılır, hər bir əsgərin sağlamlığı üçün qabaqlayıcı tədbirlər həyata keçirilir.

Tibb məntəqəsinə müraciət edən hər bir əsgər müayinələrdən keçir. Məntəqəyə daxil olan xəstə qısa zamanda tam sağalaraq xidmət yerinə göndərilir.

"Bayraqtəpə" döyüşləri həkimlərin də yaddaşından silinməyəcək. Qələbə sonluqlu döyüşlər kimi...

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

# “Açıq qapı” gününün təəssüratları

*Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən, iyunun 26-da Silahlı Qüvvələr Günü münasibətilə bütün hərbi hissələrdə əsgər valideynləri və yaxınları üçün "Açıq qapı" günü keçirildi. "Açıq qapı" günü cəmiyyətdə xoş ovqat yaratdı. Ata-analar oğullarının xidmət etdiyi hərbi hissələrdə əsgərlərə yaradılan şəraitlə yaxından tanış ola bildilər. Əməkdaşlarımız valideynlərlə söhbətləşib...*



İlhamə Hətəmova (Bərdə rayonu, Lənbəran kəndi): Oğullar Vətən üçün doğulur. Vətənin dar günündə ona arxa, dayaq oğullarımız olur. Bu, hər zaman belə olub, belə də olacaq. Qarabağda müharibə başlayanda igid, qorxmaz oğullarımız Vətən torpaqlarını qorumağa getdilər. Hələ də torpaqlarımızda müharibə gedir. Şəhidlərimizin anaları "Təki Vətən yaşasın" deyir. Mən əsgər Hətəm Hətəmovun anasıyam. Onu hərbi xidmətə "Get, Vətəni kişi kimi qoru. Vətənin şərəfi ailənin şərəfi deməkdir" kəlmələriylə yola saldım. Əsgərlərimiz üçün gözəl şərait yaradılıb. Yeməkləri, təmizlikləri gözümüzün qabağındadır. Əsgərlərimizə yaradılan bu yüksək şəraitdən çox razıyıq. Tezliklə torpaqlarımız işğaldan azad edilsin. Torpaq həsrətində olan insanlarımız doğma el-obalarına qayıtsınlar.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu",**
**foto**
**Mahmud MÖHBALIYEVİNDİR**

Vətənimizin, xalqımızın gələcəyini düşünən ümummilli liderimiz Heydər Əliyevin zamanı qabaqlayan parlaq siyasi zəkası və uzaqgörənliyi ilə söylədiyi "Vaxt gələcək Azərbaycan güclü silahlara, peşəkar zabitlərə, qısası, qüdrətli orduya sahib olacaq" fikri bu gün tam mənasıyla həyata keçib. "Açıq qapı" günündə iştirak edən hər kəs bunun canlı şahidi oldu.

Hava isti, bürkülü olsa da, "N" hərbi hissəsində qələbəlik idi. Əsgər valideynlərinin və yaxınlarının üz-gözlərindən sevinc, razılıq ifadəsi hiss olunurdu. Çöhrələrə təbəssüm, ürəklərə rahatlıq verən görüşün təəssüratlarını öyrənmək üçün valideynlərlə söhbətləşdim.

Şəki rayon sakini Təyyarə Daşdəmirova ilk olaraq Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevə, Müdafiə naziri general-polkovnik Zakir Həsənova dərin təşəkkürünü bildirdi. O, iki nəvəsinin əsgər olmasından qürurlanaraq bildirdi ki, keçən "Açıq qapı" günündə doqquz aydır müddətli həqiqi hərbi xidmətdə olan oğul nəvəm Rəşid Rakifzadənin görüşünə getmişdim. "Bu dəfə isə qız nəvəm əsgər Şahin Məmmədlinin yanına anası Kəmalə İsmayılova ilə birlikdə gəlmişik. Belə tədbirlər bəyənilən, çox təqdirəlayiq bir haldır. Biz valideynlər övladlarımızın xidmət yerləri ilə yaxından tanış olur, gündəlik məişət şəraitinin nə qədər yüksək olduğunu görürük. Əsgər yataqxanasında ürəyimiz sevincdən dağa döndü."

Bütün əsgərləri doğma övladı bilən Kəmalə xanım da əsgərlərin şəraitinin çox yüksək olmasından ağızdolusu danışdı. Yeməkxanada olub, mətbəxə baş çəkən valideyn burada müasir dövrün tələblərinə cavab verən avadanlıqların olması və milli xörəkləri qadın aşpazların hazırlamasından çox razı qalıb. Əsgər anası övladı ilə birlikdə nahar süfrəsi arxasında əyləşib. Süfrədə çörək, mövsümü salat, təbii meyvə şirəsi, növbənöv xörəklər, meyvə var. Əsgər anası xörəklərin dadına baxarkən üzündə razılıq yaranır. O bildirdi ki, çox dadlı, ləzzətli hazırlanıb. "Sizi inandırıram ki, ev xörəyindən heç seçilmir. İnanın, bir evdar xanım kimi tam səmimiyyətimlə deyirəm. Ev xörəyindən belə dadlıdır."



Əsgərin qohumu Fuad Dadaşov deyir:

- Hər birimizin oğlunun, qardaşının, yaxınlarının orduda qulluq etdiyini düşünmək bizə qürur verir. Ordu hər bir müstəqil dövlət üçün vacib şərtdir. Bu gün burada gördüklərimizdən sonra deyərdim ki, qabaqcıl hərbi texnikası, əsgərinin mənəvi-psixoloji və döyüş hazırlığı güclü olan ordumuzun qarşısında düşmən tab gətirə bilməz.

Yunis İsmayılov Gəncə şəhərindən gəlib, Oğlu Elvin bir ildir hərbi xidmətdədir:

- Keçən "Açıq qapı" günündə də iştirak etmişdim. Əsgərlərimizin şəraitindən adamın ürəyi açılır. Onların istirahəti, məişəti üçün yüksək şərait yaradılıb. Mən keçmiş Sovet ordusunda qulluq etmişəm. Heç rus ordusunda da belə bu şərait yox idi. Bir əsgər valideyni olaraq Müdafiə nazirimiz general-polkovnik Zakir Həsənova minnətdarlığımızı bildiririk. Biz öz ordumuza inanırıq."

**Leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**



Əsgər atası Coşqun Əliyev "Açıq qapı" günündə iştirak etməkdən ötrü ailəsilə birlikdə Göyçay rayonunun Ləkçıplaq kəndindən gəlmişdi. Onunla Silahlı Qüvvələr Günündə hərbi hissənin bayram tədbirində görüşüb söhbət etdik. Oğlu əsgər Kamran Əliyev bu hərbi hissədə xidmət edir və onlar bir kənara çəkilib şirin-şirin söhbət edirdilər. Anası Mirvari xanım əsgər balasının boyunu sevgi ilə süzüb nəsə ona tövsiyə edirdi.

- Hərbi andı başqa hərbi hissədə qəbul etmişdi. Orada şərait yaxşı idi. Təxminən bir ay öncə bu hərbi hissədə də gəldik oğlumun yanına. Gəlib gördük ki, burada da əsgərlər üçün bütün lazımi şərait yaradılıb. Eşidəndə ki, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığı ilə "Açıq qapı" günü keçirilir, yığışıb yenə gəldik.

Düzdür, oğlum ön xətdə xidmət etsə də, mən ondan arxayınam. Öz Vətəninə övladlıq borcunu verir. Bacarıqlı, hazırlıqlı komandirləri var. Aprel döyüşlərində düşməni məğlub eləmişdilər. Onlar əsgərin qayğısına necə lazımdır, qalırlar.

Mən bir valideyn kimi hərbi xidmətə yola düşəndə Kamrana öyüd-nəsihət vermişdim. Ona tapşırmışdım ki, Vətənin keşiyində durmaq kişi işidir, qoy kişi kimi, bir Azərbaycan vətəndaşı kimi layiqincə xidmət etsin. Vətənimizə layiq əsgər olsun. Öz əsgəri borcuna vicdanla yanaşsın. Komandirlərinin sözünə baxsın, nizam-intizamla verilən tapşırıqları yerinə yetirsin.

Ordumuzun son illərdə nə qədər inkişaf etdiyini bu hərbi hissənin timsalında görmək olar. Əsgərlərin həm xidməti, həm yaşaması, həm də istirahəti üçün burada hər bir şərait yaradılıb. Biz əsgər yeməkxanasında olduq, əsgərlərə verilən yeməklərdən daddıq. Sizi inandırıram ki, evlərdə bişən yeməklərdən burada yaxşı yemək verirlər əsgərlərə. Əsgərlərin yataq şəraiti də çox yüksək səviyyədədir. Bundan yaxşısını təsəvvür etmək mümkün deyil.

Onu da deyim ki, bunu oğluma da demişəm, özüm də gəlib oğlumla birlikdə silah götürüb vuruşmağa, torpaqlarımızı azad etmək üçün əlimdən gələni etməyə hazıram. Bir valideyn kimi mən də çox istəyirəm ki, bir qarış torpağımız düşmən tapdağında qalmasın. Bu hər birimizin şərəf işidir.

Söhbətimizin sonunda Mirvari Əliyeva ürək sözlərini bildirdi: - Burada təkcə mənim oğlum xidmət etmir. Onların hər biri bir ailənin, bir ata-ananın övladıdır. Onlar bizim fəxrimizdirlər. Ön xətdə Vətənimizin keşiyini çəkirlər. Allah onların komandirlərini də hifz eləsin. Onlar bütün ölkəmizin iftixarıdırlar. Allah bizim torpaqlarımıza göz dikmiş düşməni xar eləsin. Əsgər balalara da arzum budur ki, sağ-salamat xidmətlərini başa vurub ailələrinə qayıtsınlar.

Əsgər Kamran Əliyev artıq altı aydır ki, Vətənə övladlıq borcunu yerinə yetirir.

- Artıq altı aydır ki, ordumuzda xidmət edirəm. Çalışıram ki, komandirlərimizin etimadını doğruldum. Əsgəri peşəmi həvəslə öyrənmişəm. Silahımın taktiki-texniki xassələrini artıq öyrənmişəm. Mənim üçün xoşdur ki, zəngin döyüş ənənələri olan, aprel döyüşlərində düşməni geri oturdaraq yüksəklikləri ələ keçirmiş bir hərbi hissədə xidmət edirəm. Artıq hərbi xidmətə, kollektivə alışmışam, əsgərlərlə qaynayıb-qarışmışıq. Burada hər şey ürəyimcədir. Komandirlərimiz bizə silahdan atmağı, döyüşməyi öyrədiblər. Hərbi qayda-qanunu başa salıblar. Valideynlərimə də demişəm ki, burada hər şey yaxşıdır. Mən də digər əsgərlər kimi istənilən döyüş tapşırığını yerinə yetirməyə hazıram.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu",**
**foto müəllifindir**

*Tarix olduğu kimi*

# Ermənilərin faşistlərlə əməkdaşlığı və Qaregin Njde

***İrəvanda erməni faşizminin banisi Qaregin Njdeyə heykəl qoyulub. Heykəlin açılışında Ermənistan dövlətinin rəhbərləri də iştirak ediblər. Ermənistanda iqtidarda olan Serj Sarkisyanın lideri olduğu Respublikaçılar Partiyası bu insan qəssabını özlərinə öndər sayırlar. Ermənilər hələ 2012-ci ildə onun haqqında bir film də çəkmişdilər.***

Bu gün kasıb Ermənistanın müstəqillikdən sonra ən böyük büdcəli (7 milyon ABŞ dolları) filmi "milli qəhrəman" Qaregin Njde haqqında çəkilən film olmuşdur (2013-də nümayiş olunmağa başlamışdır). Burada ilk erməni respublikasının (1918-1920) hərbi lideri olmaqla bərabər, Njde 1930-cu illərdə "Tsexakron" (millətçi, irqçi, xristian və bütpərəst mistizminin qarışığı) adlı ideologiya yaratması qabardılır və Ermənistanı Stalinin Sovet İttifaqından azad etmək üçün Hitlerin erməni legionunun qurulmasında aktiv iştirak etməsi göstərilirdi. Bunun ardınca Njdeyə heykəl qoyulması onu göstərir ki, irqçilik və faşizm bu ölkənin dövlət siyasətidir. Dünyanın terrorçu hesab etdiyi şəxslər - başda Andranik Ozanyan olmaqla Stepan Şaumyan, Dro, Njde, Varujan Karapetyan, Monte Melkonyan, Vazgen Sarkisyan və başqaları qəhrəman hesab olunurlar. Onlar özlərindən olmayanların fiziki məhvinə çalışmış və bunu göz qırpmadan, insanların halına acımadan onları məhv etmişlər. Qaregin Njde (Qaregin Ter-Harutyunyan) da belə cinayətkarlardan biri olmuşdur. Onun yaratdığı "Tsexakronizm" təlimi, əslində, erməni faşizmidir. Faşizmin təməl fəlsəfəsi olan nasional sosialist təlimdir. Ermənistanın ilk milliyyətçi partiyalarından olan Daşnaksütyunun da simvolu faşizmin qəbul etdiyi xənçərli xaçdır.

Dünya ermənilərinin türklərə və azərbaycanlılara qarşı davranışlarının təməlində Qaregin Njdenin düşüncələri yer alır. Qaregin Njde bütün həyatı boyu türklərə düşmən mövqedə olmuşdur. O öncə savaş meydanında türklərə divan tutmağa çalışmışdır. Qəddarlıqda Andranikdən geri qalmayan bu şəxsin tökdüyü qanların sayı-hesabı yoxdur. Xüsusən 1918-1920-ci illərdə Zəngəzurda, Göyçədə törətdiyi qırğınlar, azərbaycanlıların öldürülməsi və bu bölgədən çıxarılması Njdenin "xidməti" idi. Törətdiyi cinayətlərə görə mühakimə ediləcəyindən qorxub qaçan Njde bir müddət İranda qalmışdır. 1922-ci ildə Təbrizdən Sofiyaya getmiş Njde türklər əleyhinə ilk yazılarını da bu tarixdən başlayaraq nəşr etdirməyə başlamışdı. Məsələn, "Lernhayastanın (Dağlıq Ermənistan) qəhrəman müqaviməti" (Buxarest, 1923), "Gündəliyimdən səhifələr (Qahirə, 1924)", "Övladların atalarına qarşı mübarizəsi (Selanik, 1927)" və s. kitablarında bu faşist təməlli "Tsexakronizm" təliminin konturlarını müəyyən etmişdi. Həmin dövrdə və daha sonrakı illərdə Njde, daşnaklar tərəfindən buraxılan "Hayastan" (Plovdiv), "Araks" (Sofiya), "Azatamart" (Paris) kimi müxtəlif jurnal və qəzetlərdə aktiv rol almışdı. Bütün yazılarının tək hədəfi türklər və Türkiyə, tək məqsədi də xarici ölkələrə dağılmış ermənilərdə türklərə və Türkiyəyə, Azərbaycana qarşı genetik nifrət aşılamaq idi.

Nasistlərlə ermənilər, özəlliklə daşnaklar arasındakı əməkdaşlığın ideoloji zəmini də 1930-cu illərdə qoyulmuşdu. Almaniyanın o zamankı İşğal Edilmiş Şərq Bölgələri naziri Alfred Rozenberq 1926-1936-cı illərdə Şərqşünaslıq İnstitutunun rəhbəri olan Artaşes Abegyana ermənilərin antropolojisini və tarixini araşdırmaq üçün bir komitə qurmağı tapşırmışdı. Təbii ki, bu fürsəti ermənilər əla dəyərləndirmişdilər. Dərhal hesabat verilmişdi ki, guya onlar almanlarla eyni irqdən gəlirlər. Komitənin 1934-cü ildə qurulmasından beş ay sonra Rozenberq Hitlerə ermənilərin almanlarla eyni irqdən - ali irqdən gəldiyini göstərən bir hesabat təqdim etmişdi.

Bu arada faşist erməni gənclik təşkilatları da qurulmuşdu. Bolqarıstan və Rumıniyada erməni milliyyətçi təşkilatı olan "Tsexakron" üzvlərindən ibarət döyüşçü qruplar, hərbi birliklər yaradılmışdı. O illərdə "Tsexakron" dünyadakı bütün erməniləri nasistlərlə əməkdaşlığa çağırırdı. Bir çox tarixçinin bu təşkilatı ermənilərin "Hitlerjugend"i olaraq xarakterizə etməsi çox doğru yanaşmadır. Bu işdə almanlara yaxın olan ikinci bir qeyri-alman təşkilatı olmamışdı.

I Dünya müharibəsi zamanı və ondan sonra Türkiyəyə qarşı döyüşən və müsəlman əhaliyə divan tutan general Drastamat Kanayan (Dro) da 15 dekabr 1942-ci ildə faşistlərin nəzarətində Erməni Milli Komitəsini qurmuşdu. Bu Komitənin məqsədi Avropadakı erməniləri Alman iqtidarı nəzdində təmsil etmək idi. Komitə, II Dünya müharibəsi zamanı ermənilərin SSRİ əleyhidarı və faşizm tərəfdarı təbliğatının mərkəzi oldu. 1944-cü ilin fevralında Rozenberqin əmri ilə Birləşmiş Erməni Qərargahı da quruldu. 1943-cü ilin aprelin sonunda erməni hərbi qrup, müstəqil status qazandı.

15 dekabr 1942-ci ildə Njde almanların yaratdığı "Erməni Milli Şurası"nın 7 üzvündən biri idi. Dro və Njdenin başçılıq etdiyi erməni hərbi birləşmələri, Krım yarımadasının işğalında və Qafqazdakı döyüşlərdə iştirak etmişdilər. Erməni döyüşçülər özlərini "dromedarçılar" adlandırırdılar, yeni tip bir alman uniforması geyinirdilər. Silahları isə qarışıqdı (alman və sovet istehsalı). Generalından əsgərinə qədər bu qrupda iştirak edən hər kəs, hərbi formasının sağ qolunda daşnak respublikasının üç rəngiylə "Armenien" yazısı olan bir gerb daşıyırdı. Ermənilər üçün xüsusi məktəblər qurmuşdular. Bu məktəblərdə uşaqlara 3-cü Reyxin himayəsində qurulacaq "Böyük Ermənistan"ın təbliğatını aparırdılar. Erməni təşkilatı EMK üzvləri alman işğalı altında olan Krımda çox fəal idilər. Erməni Komitəsinin fəaliyyəti Krımın alman rəhbərliyi tərəfindən də dəstəklənirdi. Yalnız ermənilərin, almanların ailələrinin gedə biləcəyi kafelər, restoranlar açmışdılar, yalnız ermənilərin gedə bildiyi xəstəxanalar qurmuşdular.

Komitə, digər tərəfdən faşist-alman ordularının ehtiyacları və erməni könüllü birlikləri üçün erməni əhalidən kömək də toplayırdı. Bu sahədə heç bir problem olmurdu, çünki bütün erməni əhali də almanları dəstəkləyirdi. Bu, onu göstərirdi ki, ermənilər kim güclü isə onun yanında olmaq xasiyyətini dəyişməmişdilər. Dərhal təşkilatlanaraq, işlərinə yarayırsa, "şeytanı belə müdafiə etmələri"ni yazan müəlliflər yanılmırdılar. Krımda "Azat Hayastan" (Azad Ermənistan) və "Hay azq" (Erməni milləti) adlı jurnallar çıxarmış, bu jurnallarda yarımadanın kişi əhalisini alman ordularının yanında döyüşməyə çağırmışdılar.

Almaniya rəhbərliyi Qafqazdakı və Türkiyədəki erməni əhalisini bu ölkələrdə qarışıqlıq yaratmaq üçün istifadə etməyə hazırlaşırdı, lakin cəbhədəki uğursuzluqlar onları bu planlarından imtina etməyə məcbur etdi.

Sovet ordusu Bolqarıstana girəndə Njde müharibənin sonunun yaxınlaşdığını görüb özünə yeni müttəfiqlər axtarmış və Sovet generalı Tolbuxinə məktubla müraciət edərək yaltaqlanmışdı. Məktubunda o, özünə bəraət almaq məqsədilə nasistlərlə yalnız onların Türkiyəyə müharibə elan edəcəyinə inandığı üçün əməkdaşlıq etdiyini iddia edirdi və yenə də Sovet İttifaqının Türkiyəyə müharibə elan etməsinin zəruri olduğunu bildirir, özünün isə bu işdə SSRİ ordusuna istənilən yardımı edəcəyinə söz verirdi. Lakin Sovet hərbi əks-kəşfiyyatı onu həbs edərək Moskvaya göndərmişdi. Bir müddət Dövlət Təhlükəsizlik Nazirliyinin həbsxanasında saxlandıqdan sonra Njde mühakimə edilməsi üçün Yerevana gətirilmişdi. Məhkəmə zamanı Qaregin Njde antisovet fəaliyyətində və kütləvi qətlləri təşkil etməkdə günahkar bilinmiş və 25 illik həbs cəzasına məhkum olunmuşdu. O, həbsxanada ölmüşdü.

Alman faşistlərinin "Yeni nizam" anlayışı ilə Njdenin "Tsexakron"u arasında bənzərliklər çoxdur. Hitlerin "irqçi dövləti" anlayışı Ermənistanda da eyni anlama gəlir. İndi Ermənistanda belə bir adama heykəl qoyulması, onun haqqında filmlər çəkilməsi, kitablar yazılması o deməkdir ki, faşizm bu ölkədə hələ də tüğyan edir.

**Qafar ÇAXMAQLI,**
**professor**

*Təəssürat*

# Təlim uğur deməkdir

Həyatımız sonradan zərurətə çevrilən təsadüflərlə doludur. Bəzən elə hadisələrin şahidi və iştirakçısı oluruq ki, uzun müddət onları unuda bilmirik. Bu hadisələr zaman-zaman bizdə xoş təəssüratlar oyadır. Belə xoş təəssüratları ağ vərəqlərə köçürməyin də öz sevinci var.

Bu günə qədər təlimlərdə çox iştirak etmişəm. Təlimlərin hərəsi bir cür yadda qalıb, çox yazılarımın mövzusuna çevrilib. Bu yaxınlarda kimyaçıların təlimindən material hazırlamaq barədə tapşırıq aldım. Günəş üfüqdən boylanar-boylanmaz yola çıxdıq. Təlim mərkəzi bir az uzaqda idi.

Kimyaçıların təlimində ilk dəfə idi iştirak edirdim. Buna görə də gördüyüm, izlədiyim, şahidi olduğum hər şey mənə maraqlı gəlirdi. Təlimin gedişini dərin maraqla izləyirdim, gördüklərim məndə xoş təəssüratlar oyadırdı...



Düşünürəm ki, təlim meydanının sirli, sehirli qüvvəsi var. Bu qüvvə adamı özünə çəkir. İştirakçılar burada özlərini daha güclü, daha cəsarətli hiss edirlər. Təlim meydanı həm də mübarizə meydanıdır. Güclərin, bacarığın, peşəkarlığın sınağa çəkildiyi yerdir, məqamdır. Həftələrlə, aylarla qazanılan təcrübə təlim meydanında sınaqdan keçirilir. Təlim meydanında həm də sabah qazanılacaq qələbələrin bünövrəsi qoyulur. Bir sözlə, təlim meydanı cəsurların məskənidir.

Üfüqdən boylanan günəş tələsmədən şəfəqlərini hər tərəfə yayır. Həm təlim meydanında, həm də müşahidə məntəqəsində böyük canlanma var. Üzlərindən cəsurluq yağan zabit və əsgərlər cəld və çevik hərəkətlərlə irəli atılırlar. Biz də müşahidə məntəqəsində dayanıb təlimin gedişini izləyirik. Mayor Nicat Zeynalov bəzi vacib məlumatlar verir, təlimin gedişini izah edir. Təlim başlayan kimi geniş düzənliyin sükutu pozulur. Müxtəlif istiqamətlərdən zirehli texnikalar təlim meydanına irəliləyir. Geniş çölü qatı tüstü-duman bürüyür. Hər kəs öz üzərinə düşən tapşırığı qüsursuz yerinə yetirməyə çalışır.



...Təlim bir saatdan da çox çəkdi. Zabit və əsgərlər qarşıya qoyulan tapşırıqları bacarıqla yerinə yetirdilər. Həmsöhbət olduğum zabit və əsgərlərin üzü gülürdü. Onlar təlimdə üzərlərinə düşən tapşırıqları bacarıqla yerinə yetirmişdilər.

Təlim başa çatandan sonra zabit Ağayar Nəbiyev şəxsi heyət qarşısında çıxış edərək bildirdi ki, təlim zamanı qarşıya qoyulan tapşırıqlar peşəkarlıqla yerinə yetirildi, məqsədə nail olundu. İnanıram ki, gələcək təlimlərdə biz daha da böyük uğurlar qazanacağıq.

Tüstü dumanı hələ də dərələrdən tam çəkilməyib. Təlimdə iştirak edən zabit və əsgərlərlə sağollaşıb yola çıxmağa hazırlaşırıq. Hərbi mahnı və marşlar bir-birini əvəz edir. Bu mahnılar hamımızın ürəyinə, qəlbinə axır: "İgid əsgər, möhkəm dayan!" Bəli, Azərbaycan əsgəri möhkəm dayanıb: həm təlimdə, həm də döyüşdə...

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

*Oğullar əsgər gedir*

# Böyük ruh yüksəkliyi ilə

***Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin imzaladığı sərəncama əsasən, gənclərin həqiqi hərbi xidmətə çağırışı başlanıb.***

İyulun ilk günlərindən Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon idarələri qarşısında bayram ovqatlı bir izdiham yaşanmaqdadır. Azərbaycan Prezidenti İlham Əliyevin 2016-cı il iyulun 1-dən 30-dək Azərbaycan vətəndaşlarının müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında imzaladığı sərəncama əsasən, gənclərin həqiqi hərbi xidmətə çağırışı başlanıb. Sərəncamda göstərildiyi kimi, 1998-ci ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1981-1997-ci illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrdə müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikasının vətəndaşları 2016-cı il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılır.



Ölkəmizin bütün rayonlarında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti, gənclər və idman idarələrinin birgə təşkilatçılığı ilə gənclərin hərbi xidmətə yola salınması münasibətilə təntənəli mərasimlər keçirilir. Həmişə olduğu kimi, ordu sıralarına əsgərlərin göndərilməsi bayram ovqatı ilə müşayiət edilir. Çağırışçıların valideynləri, hökumət və qeyri-hökumət təşkilatlarının nümayəndələri, müharibə veteranları, ağsaqqallar Vətənimizin keşiyində duracaq oğullara öz öyüd və nəsihətlərini verir və onları toy-bayramla hərbi xidmətə yola salırlar. Hərbi həkim komissiyasında tibbi müayinədən keçmiş Vətən oğulları təntənəli surətdə hərbi hissələrə göndərilirlər.

Belə xoş ovqatlı mərasimlərdən biri də paytaxtımızın Nizami rayonunda keçirilib. Gənclərin həqiqi hərbi xidmətə yola salınma mərasimi valideynlərin və çağırışçıların ruh yüksəkliyi ilə keçirilib.

Mərasimdə çıxış edən Nizami rayon İcra Hakimiyyətinin başçısı Arif Qasımov, Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Nizami rayon Dövlət İdarəsinin rəisi Rövşən Babayev, həmçinin çağırışçıların valideynləri müstəqil respublikamızda ordu quruculuğundan, bu sahədə aparılan uğurlu islahatlardan danışıb və bu şərəfli yolda gənclərə müvəffəqiyyətlər arzulayıblar. Bildirilib ki, bu gün Azərbaycanın təhlükəsizliyini sayıqlıqla müdafiə edən müasir və güclü ordusu var. Ordu quruculuğu sahəsində görülən işlər, ölkəmizin hərbi qüdrətinin yüksələn xətt üzrə inkişaf etməsi Silahlı Qüvvələrimizin işğal altında olan torpaqlarımızı istənilən vaxt azad etməyə qadir olduğunu göstərir. Bu yaxınlarda ordumuzun cəbhədə düşmənə layiqli cavabı bunu bir daha sübut etdi.

Çağırışçılar da çıxış edərək onlara göstərilən etimadı doğruldacaqlarına söz veriblər. Onlar hərbi xidmətə yola salınmasından böyük qürur hissi keçirdiklərini bildirib, Vətənə şərəflə xidmət edəcəklərini deyiblər.

Sonra gənclər tədbir iştirakçılarının xeyir-duası ilə hərbi hissələrə yola düşüblər.

Xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları isə 2016-cı il iyulun 1-dən 30-dək ehtiyata buraxılacaqlar.

**"Azərbaycan Ordusu"**

# Birlik uğurların rəhnidir

Gənclərin Vətənə məhəbbət ruhunda tərbiyə edilməsi cəmiyyətimiz üçün aktual məsələdir. Ailə, məktəb və cəmiyyətlə yanaşı, bu proses ordu sıralarında da davamlı olaraq aparılır, Vətənin keşiyində dayanan döyüşçülərin öz şərəfli vəzifələrinə şüurlu münasibət göstərməsi, doğma Azərbaycanımızın müdafiəsi naminə fədakarlığa hazır olması üçün hərbi hissələrimizdə müxtəlif tədbirlər həyata keçirilir. Belə tədbirlərdən biri bu günlərdə "N" hərbi hissəsinin şəxsi heyətinin iştirakı ilə Maksim Qorki adına kitabxanada təşkil edilib.



Tədbir "Ordu və xalqın birliyi" mövzusuna həsr edilmişdi. Müharibə şəraitində yaşadığımız bir dövrdə gənclərin vətənpərvərlik ruhunun yüksəldilməsi, xalqın və ordunun birliyi mühüm aktuallıq kəsb edir. Bunu aprel döyüşləri də bir daha bariz şəkildə göstərdi. Doğrudan da, o ordu qüdrətlidir ki, xalqın möhkəm dəstəyini hiss edir. O xalq zirvələr fəth etməyə qadirdir ki, güclü ordusu var.

Tədbirdə çıxış edən mayor İlqar Nəhmədov dövlət rəhbərliyinin qayğısı ilə ordu quruculuğu sahəsində əldə edilmiş böyük nailiyyətlərə şəxsi heyətin diqqətini cəlb elədi. Təsadüfi deyil ki, son illərdə ölkəmizdə hərbi ehtiyaclar üçün ayrılan vəsait bütövlükdə Ermənistan Respublikasının büdcəsindən artıq olub. Məhz bunun sayəsində Azərbaycan Silahlı Qüvvələri ən müasir silah və döyüş texnikası ilə təchiz edilib. Şəxsi heyətin təminatı ən yüksək səviyyədədir. Döyüş hazırlığı tədbirlərinin səmərəli təşkili nəticəsində ordumuz Cənubi Qafqazın ən güclü hərbi strukturuna çevrilib.

Başlıcası isə odur ki, hərbi hissələrimizdə xidmət edən zabit, gizir və əsgərlərimizin döyüş ruhu, Vətənə bağlılığı qoşunlarımızın istənilən döyüş tapşırığını yerinə yetirməyə imkan verir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tövsiyə etdiyi kimi, gənclər vətənpərvərlik ruhunda tərbiyə edilməlidir. "Hər bir vətəndaş, hər bir gənc, hər bir uşaq bu ruhda tərbiyə olunmalıdır. Öz torpaqlarımızı azad etməliyik və əminəm ki, edəcəyik."

Bunu aprelin ilk günlərində düşmənlə təmas xəttində baş vermiş döyüşlər açıq göstərdi. Həmin qarşıdurma zamanı Azərbaycan cəmiyyəti ordumuza tam dəstək verdi, gənclər, tələbələr erməni işğalçılarına qarşı vuruşmaq üçün təkidlə Müdafiə Nazirliyinə müraciət edirdilər. Əslində, bu hadisələr xalqla ordunun birliyinə ən bariz nümunədir. Bu birlik isə bütün uğurların rəhnidir.

Leytenant Tamerlan İsgəndərov da tədbirdə çıxış edərək Silahlı Qüvvələrimizin qarşısında duran vəzifələri yerinə yetirə bilməsi üçün ordu ilə xalqın vəhdətinin zəruri olmasını söylədi.

**"Azərbaycan Ordusu"**

# Xəbərlər:

## hadisələr, faktlar

### İraqda üç günlük matəm elan olunub



İraqın paytaxtı Bağdadda, əsasən şiələrin yaşadığı bölgədə baş verən partlayışlarla əlaqədar ölkədə üç günlük matəm elan edilib.

İraqın Baş naziri Heydər əl-Abadi hadisənin baş verdiyi, şiələrin yaşadığı rayona gələrək sakinlərlə görüşüb, onlara başsağlığı verib.

Qeyd edək ki, İŞİD terror qruplaşması tərəfindən törədilən iki partlayış nəticəsində ən son məlumata görə 126 nəfər həlak olub, 185 nəfər yaralanıb.

Ümumilikdə bu ilin ötən dövründə - fevralın 28-dən iyunun 9-dək olan müddətdə İŞİD tərəfindən İraqda törədilən 7 terror aktı nəticəsində ümumilikdə 340-dan çox insan həlak olub. Lakin iyulun 3-də törədilən terror aktı ölən və yaralananların sayına görə əvvəlki partlayışlardan daha ağır tələfatla nəticələnib.

### Pakistanda daşqın nəticəsində həlak olanların sayı 40-ı ötüb



Pakistanın Xayber-Paxtunxva əyalətinin Çitral dairəsində leysan və daşqınlar nəticəsində həlak olanların sayı 43-ə çatıb. Həlak olanların səkkizi hərbi qulluqçulardır.

Yerli polisin məlumatına görə, Çitral dairəsində güclü yağış və daşqın iyulun 2-də axşamdan başlayıb. Daşqın Ursun kəndində məscidi, inzibati binaları və bir neçə evi aparıb.

### Banqladeşdə baş verən terror aktını yerli qruplaşma törədib




Banqladeşin paytaxtı Dəkkə şəhərində 20 nəfər xarici vətəndaşın ölümünə səbəb olan terror aktını yerli "Camaatul-Mucahidin" terror təşkilatının üzvləri törədiblər.

Bu barədə ölkənin daxili işlər naziri Asaduzzaman Xan məlumat verib. O qeyd edib ki, bu terror təşkilatının İŞİD-lə heç bir əlaqəsi yoxdur.

Qeyd edək ki, bir müddət əvvəl İŞİD qruplaşmasının Dəkkədəki hücuma görə məsuliyyəti bu təşkilat öz üzərinə götürmüşdü.

### Uqandada yol qəzası nəticəsində 17 nəfər həlak olub



Uqandada beş avtomobilin toqquşması nəticəsində 17 nəfər həlak olub, 12 nəfər yaralanıb.

Zəncirvari qəza paytaxt Kampala şəhərindən 50 kilometr aralıda avtomobillərdən birinin digərini ötmək istəyərkən yük maşını ilə toqquşması nəticəsində baş verib.

### 2020-ci ildə yollarda 10 milyon sürücüsüz maşın hərəkət edəcək



Amerikalıların 66 faizi hesab edir ki, 2036-cı ilə süni intellektlə təchiz edilmiş maşınlar dövrü artıq real olacaq.

"Google", "Uber", "Apple", "Tesla" və Çinin "Baidu" şirkəti kimi informasiya texnologiyaları nəhəngləri sürücüsüz avtomobillərin hazırlanması üzərində çalışırlar. ABŞ-ın "Business Insider" nəşrinin qiymətləndirməsinə görə, 2020-ci ildə artıq 10 milyon sürücüsüz maşın yollarda hərəkət edəcək. "Ağıllı" avtomobilin dəyərinin azalması, həmçinin sürücüsüz nəqliyyatın tətbiqini nizama salan qanunların qəbulu bu bazarın inkişafını təmin edəcək.

**AZƏRTAC-ın materialları əsasında**

Publisistik düşüncələr

# Şuşaya aparan yollar görünür




Sonu başlanğıcından görünən bir yol üçün ürəyim göynəyir. 23 ildi ayaq səslərimizin həsrətini çəkən bu yolun həsrətindəyik...

O yolun sonunda Qarabağ var, Laçın var, Kəlbəcər var, Ağdam var, Füzuli var, Qubadlı var, Cəbrayıl var, Zəngilan var...

O yolun sonunda Şuşa var...

O yol gündüzlər düşüncələrimizin sıxılcımıdı, gecələr yuxularımızda gecələyir...

Aprelin əvvəllərində ruhumuzun ünvanı olan Lələtəpədəydim. O ucalıqda, bayrağımızın kölgəliyindən qədərsiz istəklərlə qarşı tərəfə boylanırdım. Xəyalımda Dədə Qorqud tonqalları yanırdı. "Xanın səsi havalanırdı." İsa bulağı coşurdu, Cıdır düzü çiçək-çiçək üzə gülürdü...

Təpəliyin solunda yollar görünürdü. Bu yollarla nə gedən vardı, nə gələn. "Bu yollar hara gedir?" - soruşmuşdum. Ünvansız sorğuydu. Əsgərlərdən biri inamla "Qələbəyə!" - demişdi. Düşüncələrimi durulaşdıran, ruhuma can ortağı olan bu bircə kəlmə başqa formada, ayrı məzmunda misralaşmışdı: "Şuşaya aparan yollar görünür!..". Misralaşmışdı və bir neçə gündən sonra "Lələtəpə" poemasının sonluğu olmuşdu: bətnində düşmənə atılacaq sonuncu gülləni saxlayan misra kimi o vaxtdan indiyəcən könlümün şahənşahıdı. Duyumlu dostlarımdan biri bu misranı o qədər sevgilərlə, o qədər inamla təkrarlayır ki!..

Yol məfhumu şərti başlanğıcı nisbi sonluqla birləşdirir. Apreldən üzü bu yana düşüncələrimdən üzülməyən, qələbəyə aparacaq yol kimi nişan verilən yolun başlanğıcı əsgərlərimizin ürəyidi, sonu ruhumuzun qibləgahlarından olan Şuşadı. Zamanında yadellilərə bac verməyən Şuşa, dağlarının başı dumanlı Şuşa, bir Şikəstəyə söykənib milyonların ürəyini coşduran, duyğularını təlatümə gətirən, neçə yüz illərin tarixini yaşa-da-yaşada yaşanılacaq illərin cəfasını çəkən Şuşa. Şuşasız illəri biz, bizsiz illəri Şuşa tarix hesab eləmir. Şuşalı tariximizə uğur üstəyik. Şuşaya aparan yollar buradan aydınlığıyla görünür...

O yolların başlanğıcı əsgərlərimizin ürəyidi. Bu yol yaxın vaxtlarda uğur yolu olacaq...

"İnşaatçı" qəzetində işləyirdim. 1990-cı ilin payızıydı. Şuşaya ezam edilmişdim. Xocalıdan Şuşayacan içimdə bir ağrı gümüldənmişdi: avtobusu hərbçilər müşayiət edirdi...

Qala qapısı görününcə ürəyim tellənmişdi. Ayaq saxlamışdım. Qəribə, mülayim səssizlik Xan qızı Natəvanın şeirlərindən süzülüb gələn mətləblərin səssiz-sözsüz carçısıydı sanki. "Şuşanı qoruyun..." deyirdi elə bil...

Təbiət hər yerdə möcüzə yaratmır. Bir möcüzə görmüşdüm Şuşada. Bir ağacın yana meyilli budağıyla gövdəsinin qovuşacağında gül bitmişdi! Əsən yellər buranı torpaqla silələyib, rüzgar ora bir gül toxumu atıb. Toxum cücərib, boy göstərib, gül olub. "Baxmaqdan nə göz doyurdu, nə könül əl çəkirdi" (M.İlqar)...

O ağacı Azərbaycanın, budağı Qarabağın, gülü Şuşanın rəmzi bilmişdim. Görəsən, görəni yolundan eləyən o ağac, o ağacın budağı, o budaqda bitən həsrətim gül dururmu? Həsrətdən solub-saralıbmı? Quruyubmu?.. Özüm məni o ağaca yetirəcək yolun başlanğıcındayam. Xəyalım Cıdır düzündəydi.

Daşaltıya daşlar atdım. Məndən beş-altı addım aralıda dayanmış uşaq üzümə baxdı. Baxdı və ... o da Daşaltıya daşlar atdı...

Dönüşümüzdə gəldiyim yolu bir qədər piyada getmək istəmişdim. Həmkarım Əkbər "Darıxma" demişdi. "Yenə gələrik". "Müşayiətsiz gəlmək istəyirəm" demişdim; gedəndə ürəyimi üzən, dönəndə gözlərimə, gözlərimdən könlümə həsrət düzən o yolun başlanğıcında əsgərlərimizin göyü yerə eləməyə, yeri göyə dikəltməyə qadir olan baxışlarını uğuruma işıq bilmişdim. O işıq o yolun boyuna biçilib...

Lələtəpənin sağından keçən yol məni (bizi!) Cıdır düzündə dayanıb Topxanaya baxacağım anlara aparacaq. Onda Şuşanın dumanı çəkilmiş dağlarına baxıb Şuşada şəhid olanlarımızı xatırlayacam. Onların 1991-ci ilin mayınacan keçdiyi cığırlara düşəcəm, sonuncu səngərdən dövlət sərhədimizə göz gəzdirəcəm. Bu yollara-cığırlara bir də yad ayağı dəyməyəcək! Bu yollara-cığırlara yad nəfəsi toxunmayacaq!.." - düşünürəm. Bu düşüncələr Azərbaycan əsgərinin inamıdı!..

Əsgərlərimizin ürəyindən keçən bu yol bizi Şuşaya yetirəcək!

Şuşaya aparan yolda əsgərlərimizin iziycə dizin-dizin gedərəm! Gedəcəm! Ruhumuzun yoludu bu yol!

Şuşaya aparan yollar görünür, əsgər qardaşım!

Ürəyimiz o yola çataqlıdı!..

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

## ATƏT PA-nın sessiyasında erməni deputatların daha bir təklifi rədd edilib

***Tbilisidə ATƏT Parlament Assambleyasının 25-ci yay sessiyası işini davam etdirir.***

İyulun 4-də qurumun demokratiya, insan haqları və humanitar məsələlər komitəsinin iclasında ATƏT regionunda demokratiyanın inkişafı, insan haqlarının vəziyyəti, humanitar durum və s. məsələlər, eləcə də bu komitənin yekun qətnaməsinin layihəsi müzakirə olunub.

Ermənistandan olan deputatlar qətnamənin "ATƏT regionunda artan zorakılıq və diskriminasiya hərəkətlərinin araşdırılmasının vacibliyi" bəndinə "milli azlıqlar və dini qruplar" sözlərinin də əlavə olunmasını təklif ediblər.

Azərbaycan nümayəndə heyəti isə belə bir əlavəyə ehtiyacın olmadığını bildirib.

Nümayəndə heyətinin üzvü, Milli Məclisin deputatı Ülviyyə Ağayeva deyib ki, zorakılıq və diskriminasiya hərəkətlərini dini və milli mənsubiyyətə ayırmaq düzgün deyil və bu, yeni problemlərin yaranmasına səbəb ola bilər.

Azərbaycanlı deputatın təklifi komitə üzvləri tərəfindən də dəstəklənib.

Müzakirələrdən sonra Ermənistan tərəfinin təklifi qəbul olunmayıb.

**AZƏRTAC**

# Əsgərlərimizə ana qayğısı





Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun orduya göstərdiyi diqqət və qayğının nəticəsidir ki, son vaxtlar əsgərlərin məişət şəraiti tamamilə yaxşılaşdırılıb, sosial təminatı yüksək səviyyəyə çatdırılıb. Hərbi hissələrimizdə yeni yeməkxanalar, yataqxanalar, hamam və camaşırxanalar şəxsi heyətin istifadəsinə verilib. Hərbi hissələrə ezamiyyətimiz zamanı bunların şahidi oluruq.

Ağdam rayonunda yerləşən "N" hərbi hissəsində ezamiyyətdə olarkən hərbi hissənin çöl şəraitində yerləşən artilleriya divizionunun müasir tələblərə cavab verən, tamamilə avtomatlaşdırılmış sistemdə fəaliyyət göstərən camaşırxanası ilə də tanış oldum. Camaşırxana ən son avadanlıqlarla təmin olunub. Qadın operatorların səliqəli geyimi də, ətrafdakı təmizlik də diqqəti çəkir.

Operator Zülfiyyə Həsənova ilə söhbətləşirəm. "Camaşırxanamız yeni avadanlıqlarla təmin olunub. Bu da camaşırların az vaxtda təmizlənməsinə zəmin yaradır", - deyir Zülfiyyə xanım. Onun sözlərinə görə divizionun bütün şəxsi heyətinin yataq dəstləri və geyimləri bölmələrdən təhvil alınır. Müasir və irihəcmli paltaryuyan maşınlardan istifadə edilir. Camaşırxana işçiləri tərəfindən ütülənir, çeşidlənir, səliqə ilə anbara yığılır.

Yuyulmadan sonra camaşırları səliqə ilə ütüləyən operator Tatyana İsmayılova deyir ki, əsgər balalarımızı təmiz və ütülənmiş yataq dəstləri, səliqəsahmanlı geyimlə təmin etmək üçün çalışırıq. "Bu işin öhdəsindən layiqincə gəlmək üçün əlimizdən gələni edirik. Əsgərlərə xidmət etmək şərəflidir. Onlar bizim övladlarımızdır."

Operator Kamilə Talıbova qurudulmuş və ütülənmiş camaşırları çeşidləyir. "Kəndimiz düşmənlə təmas xəttində yerləşir. Buna baxmayaraq, kənd əhalisi rahat yaşayır, işə gedib-gəlir, torpaqlarında əkinçiliklə məşğul ola bilirlər. Çünki əsgərlərimiz onları qoruyur. Mən də həmin əsgər balalarımıza xidmət etməyin məsuliyyətini və əhəmiyyətini yaxşı dərk edirəm. Vətənin keşiyində duran övladlarımıza xidmət etməkdən qürur duyuram", - deyir Kamilə xanım.

Camaşırxananın təcrübəli operatorları əsgər analarına xitabən "Oğullarınız öncə Vətənə, sonra bizlərə əmanətdir. Onlara öz balalarımız kimi qulluq edirik", - deyirlər...

**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu",**
**fotolar müəllifindir**

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Günay TAĞIYEVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 417
Nüsxə 4660